## "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

(çıxarış)

"Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

3. Müəyyən edilsin ki:

3.3. həmin Məcəllənin 48.1-ci (birinci cümlədə), 61.2-ci (birinci və ikinci cümlələrdə) və 61.11-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

3.3.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi.

4. Dövlət orqanları və yerli özünüidarə orqanları qanunvericiliklə onlara həvalə edilmiş hüquq və vəzifələri kommersiya və qeyri-kommersiya hüquqi şəxslərinə ötürə bilməzlər.

5. Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumat aşağıdakı mətbu nəşrlərdə dərc edilir:

5.1. qeyri-kommersiya hüquqi şəxslər haqqında məlumat – "Ədliyyə" qəzetində;

5.2. dini qurumlar haqqında məlumat - "Cəmiyyət və din" qəzetində;

5.3. kommersiya hüquqi şəxslər və publik hüquqi şəxslər haqqında məlumat – "Vergilər" qəzetində.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 avqust 2000-ci il
№ 386